*Müsahibim Armrestinq (qol güləşi) üzrə 4 dəfə dünya, 5 dəfə Avropa mükafatçısı və 6 qat Azərbaycan çempionu, Milli Qəhrəman Asif (Fred) Məhərrəmovun yeganə övladı Azər (Fred) Məhərrəmovdur. Söhbətdə idmançının əmisi Hacı Ədalət də iştirak edirdi.*

# MƏN VƏTƏNİMİN, XALQIMIN, DÖVLƏTİMİN, PREZİDENTİMİN ƏSGƏRİYƏM

***- Azər, səni tanımayanlara tərcümeyi-halın haqqında nələri demək istərdin?***

- 1977-ci ilin 16 yanvarında Ağdam rayonunda anadan olmuşam. Anam Ağdamın Əhmədavar kəndindəndir. Əsli isə Laçının Şellanlı, Ağbulaq kəndindən. Özüm 1992-ci ildə 15 yaşımdan atam Fred Asifin batalyonunda müharibədə iştirak etmiş, Xramort, Xanabad, Əsgəran, Naxçıvanik, Aranzəmin, Pircamal və başqa kəndlərdə döyüşmüşəm. Ağdam alınan son günə - 23 iyula kimi oranı tərk etməmişəm. Sonra atam ağır yaralananda və xəstəliyinin şiddətindən hospitala düşəndə, onun yanında tez-tez olurdum. Azərbaycanın, eləcə də Ağdamın əksər tanınmış ziyalıları və sadə insanları atamı ziyarətə gəlirdilər. Bəziləri də problemlərini həll etmək üçün məhz ona üz tuturdular. Azərbaycandan əlavə onun adı indi də keçmiş SSRİ məkanında ehtiramla xatırlanır. Uşaqlıqdan kinq-boks idman növü ilə məşğul olmuşam. Sonra qaydasız döyüşlərə maraq göstərməyə başladım. Evdəkilərin və xüsusən Ədalət əmimin etirazına görə bu idman növüylə sistemli məşğul olmadım. Hal-hazırda armrestinq idman növü ilə məşğulam. Rusiya vilayətlərinin qolqatlama yarışlarında dəfələrlə Azərbaycan bayrağını məhz çempion kimi zirvədə dalğalandırmışam.

***- Bayrağımızı dalğalandıranda çempion kimi hansı hissləri yaşayırdın?***

- Tək özüm deyil, Azərbaycan bayrağını fərqli idman növlərində dalğalandıran bütün idmançıların qeyri-adi fəxarət duyğusunun yaşadığını hiss etmişəm. Təbii ki, keçirdiyimiz bu qürur duyğuları xalqımıza, dövlətimizə aiddir. Bayrağımız da, prezident də dövlətçilik atributlarındandır. Bayrağı ucalığa qaldırırıqsa, bu, bizə şərəfli anları yaşamaqda böyük diqqət göstərəm möhtərəm prezidentimizi də əməlimizlə zirvədə idman üzrə təmsil edirik anlamına gəlir.

***- Qol güləşi yarışı arxada qaldı. Çox güclü rəqiblər arasında ikinci yerin sahibi oldun. Yarışı və nəticəni necə qiymətləndirirsən?***

- İdmanın bu növü üzrə yarışın inkişafına Azərbaycanda artıq çox yüksək səviyyədə impuls verildi. Bu olduqca ümidverici amildir. Möhtərəm prezidentimizin idmana olan qayğısına minnətdarıq. Gənclər və İdman Nazirliyinə, Armrestinq Federasiyasının prezidenti Cəsarət Əhmədova, vitse-prezidentə, baş katibə, "Gilan Holdinq" şirkətinin rəhbərliyinə, "Jalə" şirələrinin sözügedən yarışdakı önəmli dəstəyinə, baş məşqçi və hakimlərə, yarış iştirakçılarına, xüsusən də İçtimai Televiziyanın rəhbərliyinə, şəxsən İsmayıl Ömərova, Çingiz müəllimə, aparıcı Kamran qardaşıma xüsusi təşəkkürlərimi bildirirəm. Mənimlə finala çıxan Mirsaleh Aslanovu qəlbən təbrik edirəm. Yarış prosesində keçmiş SSRİ-nin onlarca şəhərlərindən və xarici ölkələrdən Türkiyədən, İrandan, Almaniyadan, Hollandiyadan, İsveçdən yüzlərlə zənglərə təşəkkürlərlə cavab verdim. Belə zənglər Gəncə, Lənkəran, Şuşa, Bərdə, Qubadlı, Şamaxı, Ağsu, Göyçay, Sumqayıt, Şəki, Salyan, Quba, Zaqatala, İsmayıllı camaatından da gəlirdi. İkinciliyin uyğun mükafatını almaqla bahəm, ağdamlılar mənə "Mersedes" markalı avtomobil bağışladılar. Azərbaycanın, Ağdamın bütün Asifsevərlərinə, kişilərinə "çox sağ olun!" deyirəm. Allah razı olsun!

***- Yarışlarda sənə maddi-mənəvi köməklik göstərənlər olurmu?***

- Atamın silahdaşı, məsləkdaşı Hacı Adil və oğlu Savalan, Kəngərli Fazil, Hümbət, Rauf müəllim, Məhəmməd müəllim, Arif qardaşımız, Nazim, Valeh Göytəpəli başda olmaqla Ağdamın Pirhəsənli-Gəngərli camaatı da insanlığa sadiqliyi ilə çox fərqlənirlər. Ana ocağım laçınlılar da həmçinin. Ümumən naxçıvanlılardan, göyçəlilərdən, vedililərdən, zəngəzurlulardan, borçalılardan, marneulilərdən, Sverlovskidə yaşayan qardaşlardan da xeyli dəstək görürəm. Hörmətli adlarını təşəkkür duyğuları ilə çəkməyə gələndə, Şahin Rüstəmov, Bərdəli Füzuli müəllim, Elman müəllim, Namiq qardaşımız, Aqil Abbas, Asif Mərzili, Vasif Məhərrəmov dəfələrlə dünya çempionu Fariz, Moskvadan Maqsudlu Oqtay, Bəhruz Axundov, döyüşçü Həcər xanım, dəfələrlə dünya çempionları olmuş Bəxtiyar, Vüqar, 7 qat dünya çempionu Ceyhun Məmmədov, dünya çempionu Mübariz müəllim, Güləş Federasiyasının rəhbərliyindən Elçin Cəfərov, Saleh Məmmədov, rəssam Natiq, şair German, jurnalist Habil, "sputnik" Mamed, Dəmirlə-İlham qardaşımız, Sərdar həkim, Akif və Arif Babayev qardaşları, atamın simsarı xıdırlı Cəbi, Gülablıdan Aydın, Abdal Qəhrəman, Filman, Mehman; Rəmiyyəddin, Hacı Asif, aptek Fuad, əmimin dostu Mahir Əliyev, böyük qardaşı Tahir Əliyev, məşhur gitaraçılardan Rəmiş və Rəhman, uşaqlıq dostum Kamil, Rauf, Zöhrab, Etibar, sabirabadlı Rəzzaq müəllim, general Dadaş Rzayev, polkovnik Hacı Həsən müəllim, və başqaları... Mənə Azərbaycan bayrağı ilə bərabər bir orijinal hədiyyəsinə görə, eyni zamanda bütün yarışlar boyu mənimlə əlaqə saxladığına görə məşhur gitaraçı Rəhman qardaşıma xüsusi minnətdarlığımı bildirirəm.



***- Dediyin kimi insanlığa sadiqliyi ilə seçilən bu insanlara bəslədiyin duyğuları konkret necə ümumiləşdirərdin?***

- Bu insanlar xüsusi sayğılarla xatırladıqlarımın heç də hamısı deyil. Təbii ki, başqaları da var. Adlarını çəkməsəm də, onlar da qəlbimdədirlər. Əminəm ki, bütün bu gözəl insanlar, hansı sənətdə, mövqedə, diyarda olmalarından asılı olmayaraq, mənə öncə atamın şəxsiyyətinə xüsusi rəğbətləri sayəsində kömək edirlər. Beləleri, atamın ruhuna etiramlarını mənim şəxsimdə davam etdirirlər. Mən də atamla və onun adına bəslənən səmimi, təmənnasız yaxşılıqlarla təsəlli tapıb, fəxr edirəm. Yaxşılara, dosta sadiq insanlara həmişə yuxarıdan aşağı, aşağıdan yuxarı dualar edirəm. Onlar məsuliyyət hissini daha da gücləndirir. Və heç unutmuram ki, MƏN ALLAHIN, VƏTƏNİMİN, XALQIMIN, DÖVLƏTİMİN, PREZİDENTİMİN ƏSGƏRİYƏM.

***- Atanı necə xatırlayırsan? "Fred" ləqəbini götürməyin hansı anlama gəlir?***

- Təvazökarlıqdan kənar çıxmasın, Azərbaycanda az ailələr mövcuddur ki, bir ailədən 5 qardaş vuruşa, şəhid və əlil olalar. Atam istəsəydi, hələ sağlığında bizim heç bir dünya nemətindən ehtiyacımız olmazdı. Təbii ki, o, Vətən, şəxsiyyət və bu kimi müqəddəs dəyərlərə haqlı olaraq üstünlük verdi. Onun bizlərin maddi təminatı üçün bilərəkdən istifadə etmədiyi bütün imkanlardan, fürsətlərdən bəhrələnməməsi, atamın maddi dünya insanı olmadığını dönə-dönə təsdiqləyir. O, ağız açmağı, kimdənsə nələrisə ummağı qətiyyən xoşlamazdı. Təkcə bir fakt deyim ki, atam ümummilli öndərimiz, cənnətməkan Heydər Əliyevin dəvəti ilə o, dahi şəxsiyyətlə iki dəfə görüşüb. Amma o, böyük insandan Qarabağın azadlığından savayı heç bir şəxsi təmənnada bulunmayıb. Bununla belə öndərimiz atamın şəxsiyyətinə hörmətlə yanaşıb. Ev, adına küçə verilməklə, hərbi hissədə atamın büstü qoyulub. Bu gün möhtərəm prezident İlham Əliyev də Milli Qəhrəman ailələrinə müxtəlif iltifatlar göstərir. 600 AZN Prezident təqaüdü və digər qayğıları məhz rəhbərin lütfündən doğan sərəncamları ilə davam etdirilir. Bu kimi hallar şəxsiyyətin, qəhrəmanlığın, alicənablığın təsdiqi qarşılığıdır ki, təzahür edir. Fred ləqəbinə gələndə bu sözün ingilis dilindən çevirməsi səmimi-sədaqətli dost mənasına gəlir. Atam insanlığın səmimi dostu kimi görürdü özünü. Bu ləqəbi əmimoğlu balaca Asif də götürüb. Fred Asif adı ailəmizə, nəslimizə-kökümüzə məxsusdursa, onun örnək, qəhrəmanlıq yolu Azərbaycan xalqının tarixi salnaməsinə aiddir. Yeri gəlmişkən atam haqqında kitab yazan hörmətli yazıçı Mustafa Çəmənliyə və şair-publisist Nizami Süleymanoğluna yaxınlarımız adından təşəkkürlərimi ərz edirəm. Atalar "İgid ölər, adı qalar" deyib. Artıq atamın şərəfli adı orta məktəb dərsliklərinə də salınıb. Mən əsl qəhrəmanların və qəhrəmanlar doğan anaların, eyni zamanda onların adlarını layiqincə qiymətləndirənlərin qarşısında ehtiramla baş əyirəm.

***- Hər şey ziddi ilə üzə çıxır. Kainatda təzad qanunu mövcuddur. Gözəl çəmənliklərdəki çiçəklər arasında, alaq otları da gözə dəyir. Bütün bunların fonunda ağdamlılığa, ziddiyətə necə baxırsan?***

- Doğrudan da yaman olmasa, yaxşının qədri yetərincə bilinməz. Ağdamda doğulmaq, pullu olmaq, hələ əsl insan, ağdamlı olmaq demək deyil. Pul insanın dayağı olsa da, kişiliyin ölçüsü sayılmır. Ölçü mənəviliklədir. Təbii ki, mənəvilik maddiliklə vəhdətdə birləşib, doğru istiqamətə yönələndə böyük fəzilət yaradır. Bakıda, Rusiyada bu gün özünü ağdamlı sayan bəziləri var ki, onlara haradan baxılırsa baxılsın, dırnaq arasında görsənirlər. Vaxtı ilə Ağdamda ağdamlılar döyüşdə ikən ev-eşiyini, torpağını qoyub Rusiyaya, Bakıya qazanc dalınca qaçanlara, nə ad vermək olar? Naxaləfmi, nankormu, fərarimi? Təzada baxın ki, Orta Asiyadan, keçmiş Sovet məkanlarından, Azərbaycanın müxtəlif bölgələrindən, eləcə də Gürcüstandan, Dağıstandan atamın dostları gəlib Ağdamda vuruşurdu, şəhid olurdu... Bəli, müharibə elə bir sınaqdır ki, haralı olmağından asılı olmayaraq, adamın mənəviyyatındakı çatları üzə çıxarır. Tarix və əsl ağdamlılar, bildiyinə görə belə zərsifət (nərd zəri) adamların adlarını çəkməyə də dilim gəlmir. Pulları çox, əlləri uzun olsa da, dillərinin gödəkliyi bələlərinə tarixi cəza olaraq ömürlük qalacaq. Onlar küləyin istiqamətinə buqələmun (çoxsifət) kimi uyğunlaşırlar. Nə isə... Hər şeyin zamana ehtiyacı olsa da, abrıma-həyama sığınıb konkret ad çəkməyə ehtiyac duymuram. Bələlərini vicdanına (əgər varsa) və Ulu Allahın öhdəsinə buraxıram.

***- Keçmiş bəllidir. Bəs gələcək planların haqqında nələri düşünürsən?***

- Xarici səfərlərim yəqin ki, olacaq. Məşqlərimə davam edirəm. Hələ ki, işsizəm. Sənədlərimi müəyyən instansiyaya, hörmətli insanların nəzərinə təqdim etmişəm. Gözləyirəm. Gözləntilərim gerçəkləşsə, Allahın izni ilə subaylığın da daşını ataram. Onu bilirəm ki, yaşanmamış gələcək haqqında dəqiq söz demək olmur. Çətinliklər qarşısında mütləq alternativ yaratmaq vacibdir. Bu yol isə bilik, istək, zəka və gücü, cəsarəti şətləndirir. Bu halların yaratdığı durum alternativi yarada bilir. Alternativ mübarizə şərtlərinin və şəraitlərinin tələbindən doğur. Getdiyin yolda ya gərək irəliləməyi bacarasan, ya da irəli gedənə qədər heç olmasa yerində qalmağı bacarasan. Bir addım geri çəkilsən, sənin addımının yerinə başqası öz addımını qoyacaq. Mən öz yolumla, amma atamın izi ilə gedirəm. Böyüklər və böyüklük öz yerində. Şübhəsiz ki, bu yaşıma qədər mənə əmilərim, dayılarım, atamın və özümün dostlarım maddi-mənəvi həyan olublar. Diləyim budur ki, Qadir Allah da onlara, xalqımıza kömək olsun. Qarabağımıza qayıdaq və dünya səviyyəli idman yarışlarını Şuşada keçirək inşallah!

**P.S.**
**F**əzilətli
**R**uhlara
**E**htiram
**D**uyğusu
**A**llahı
**S**evən
**İ**nsanlara
**F**ərzdir!

***Nizami Məmmədov***

## *Nikolay Patskeviç:*
# "Əlillərimiz parlamentdə də təmsil olunurlar"

***Diqqət və qayğıya ehtiyacı olan əlillərə, bütün ölkələrdə olduğu kimi, Belarus Respublikasında da xüsusi önəm verilir. Qəzetimizin əməkdaşı həmin ölkənin Azərbaycan Respublikasındakı səfiri Nikolay Patskeviçə müraciət edərək öz ölkəsində əlilliyi olan insanlara dövlət səviyyəsində göstərilən qayğı ilə bağlı görülən tədbirlər barədə məlumat verməsini ondan xahiş etmişdir. Nikolay Patskeviç demişdir:***



-Belorusda prezidentin özü əlillərə böyük diqqət və qayğı göstərir. Ölkədə hər şeydən əvvəl rəsmi dövlət Qanunu fəaliyyət göstərir. Bu Qanuna əsasən əlillər digərlərindən fərqləndirilmir, onların cəmiyyətdə böyük rol oynamasına imkan yaradılır. Bundan əlavə onların reabilitasiyasının , tibbi yardımların edilməsinə xüsusi önəm verilir. Bu işlər davamlı olaraq aparılır. Əlillər Belorus Parlamentində təmsil olunur, aktiv işə məşğul olurlar Onlar idman sahəsində də də öz sözlərini deyirlər. Belorus Respublikasında əlil insanlaraın maraqları daim müdafiə olunur, cəmiyyətə adaptasiya olunmalarına şərait yardılır. Bu sahədə imkanlı xeyriyyəçi iş adamları da öz köməyini əsirgəmirlər.

***Orxan Nehrəmli***

# Azərbaycan səhiyyəsi sürətlə inkişaf edir

## İldırım Qasımov:
## *"Xəstələrin müalicə üçün xarici ölkələrə getmələrinə ehtiyac yoxdur"*



Əməkdaşımızın 5 Saylı Şəhər Klinik Xəstəxanasının həkimi, Bakı şəhərinin baş allerqoloqu İldırım Qasımovla müsahibəsini sizə təqdim edirik:

***- İldırım müəllim, ilk öncə özünüz barədə məlumat verməyinizi istərdik.***

- Mən 1945-ci ildə Gəncə şəhərində anadan olmuşam. 1964-1970-ci illərdə Tibb Universitetində ali təhsil almışam. 1970-1971-ci illərdə Bakıda, 1971-1973-cü illərdə isə Moskvada hərbi həkim işləmişəm. 1973-cü ilin sentyabrından 5 Saylı Şəhər Klinik Xəstəxanasında həkim işləyirəm. 1975-ci ildə məni Moskvaya kursa göndərdilər. Allerqoloq diplomunu aldıqdan sonra həmin xəstəxanada allerqoloq-həkim kimi fəaliyyətə başladım. Hazırda Allerqoloji Mərkəzin kabinet müdiriyəm. Tibb elmləri namizədiyəm. 2002-ci ildən isə Bakı şəhərinin baş allerqoloquyam.

***- Azərbaycanda səhiyyə sisteminin hazırki vəziyyəti barədə nə deyə bilərsiniz?***

- Ümumiyyətlə, səhiyyə sahəsində baş verən köklü dəyişikliklər, aparılan kadr islahatları, yetişdirilən yüksək səviyyəli tibbi pesonallar, səhiyyə ocaqlarının gərəkən tibbi ləvazimatlarla, avadanlıqlarla, qurğularla və dərman preparatları ilə lazımi təminatı, yeni tibb müəssisələrinin tikintisi və digər buk imi mühüm və önəmli məsələlər Azərbaycan səhiyyəsinin çox yüksək sürətlə inkişafından xəbər verir.

***- Xəstələriniz arasında əlillər varmı? Onlara hansı səviyyədə dəstək və yardım göstərə bilirsiniz?***

- Bizə əlillər də müraciət edirlər. Biz onlara imkanımız daxilində lazımi səviyyədə tibbi xidmət göstəririk.

- İldırım müəllim, istifadə olunan dərman preparatları barədə nə deyə bilərsiniz?

- İndiki bir çox dərmanların keyfiyyəti yoxdur. Hansısa bir ölkə dərman istehsal edir, firmalar da bu dərmanları respublikamıza da reklam edirlər. Firmanın özünün zavodu, fabriki yoxdur ki, dərman istehsal etsin. Amma bu gün Azərbaycanda yaxşı dərmanlar, texniki avadanlıqlar da çoxdur. Bütün xəstəliklərin diaqnostikası və müalicəsi Bakı şəhərində yüksək səviyyədə aparılır və bu iş daha da inkişaf edir. Məsələn, elə götürək allerqologiya sahəsini. Xaricdə mövcud olan bütün testlər, eləcə də laborator yoxlamaların hamısı ölkəmizdə də aparılır. Bizim 5 Saylı Şəhər Klinik Xəstəxanada bütün sınaqlar qoyulur və müalicəsi də aparılır. Moskvada, Amerikada aparılan müalicələrin hamısı burada da həyata keçirilir. Ona görə də xəstələrin kifayət qədər maliyyə vəsaiti xərcləyib müalicə üçün xarii ölkələrə getmələrinə ehtiyac yoxdur.

- Şahidi olmuşuq Ki, savadlı həkimlərin əksəriyyəti dövlət xəstəxanaları ilə bərabər, özəl klinikalarda da işləyirlər və əsas bacarıqlarını da özəl səhiyyə müəssisələrində göstərirlər. Sizcə, bu, nədən irəli gəlir?

- Mən belə deməzdim. Düzdür, xəstələr çox vaxt özəl səhiyyə müəssisələrinə üstünlük verirlər. Bu da səbəbsiz deyil. Xəstəni həmin özəl klinikaların yüksək xidmət keyfiyyəti, avadanlıqları və s. cəlb edir.

- Xəstəxananızda qida təminatının vəziyyəti necədir ?

- Xəstəxanamızda müalicə olunan şəxslər gündə üç dəfə yeməklə təmin olunurlar.

- Xəstələr bütün dərmanlarla təmin edilirlərmi?

- Bəli, xəstələr bütün dərmanla təmin olunurlar. Hətta ağır xəstələri belə müalicə etmək üçün dərmanlarımız var. Bir sözlə, özəl klinikalarla bizim xəstəxananın heç bir fərqi yoxdur.

- İldırım müəllim, Azərbaycan Tibb Universitetini hər il çoxsaylı məzun bitirir. Həmin gənc həkimlərin bilik səviyyəsindən razısınızmı?

- Sualınızla bağlı yalnız onu deyə bilərəm ki, yaxşı oxuyan tələbə yaxşı da həkim olur.

- Azərbaycan səhiyyəsini gələcəkdə necə görmək istərdiniz?

- Ümumiyyətlə, mən bir Azərbaycan vətəndaşı kimi ölkəmizin gələcəyinə nikbin baxıram. İnanıram ki, ölkə başçısı cənab Prezident İlham Əliyevin apardığı böyük iqtisadi və siyasi islahatlar digər sahələrdə olduğu kimi, Azərbaycan səhiyyəsində də özünün konkret nəticələrini verəcəkdir.

***Ramilə Məmmədağaqızı***